*Qeyri-rəsmi tərcümə*

Çexiya Respublikası
**Martin Stropnitski**
Baş nazirin müavini
Xarici İşlər Naziri

Praqa, 2 yanvar 2018-ci il

Zati-aliləri,

Hörmətli Səfirlər!

22 dekabr 2017-ci il tarixli məktubda siz, Praqa-6 bələdiyyəsinin, Sovet İttifaqı marşalı İ.S.Konevin abidəsinə onun tərcümeyi-halı əks olunan informasiya lövhəsinin yerləşdirilmə qərarına dərin həyəcan və narahatlıq bildirmişsiniz. Hesab edirsiniz ki, belə bir addım abidənin əhəmiyyətini azaldır, tarixi dəyişir və nasizmə qarşı mübarizənin qurbanlarının xatirəsini təhqir etmiş olur. Siz düşünürsünüz ki, İ.S.Konevin abidəsi siyasi oyunda istifadə olunur və bu məsələ bələdiyyə orqanlarının öhdəsinə buraxıla bilməz. Bütün bunların bir anlaşılmazlıq olduğunu hesab edirəm və məktubun ictimailəşdirilməsini lazımsız bir jest olaraq qiymətləndirirəm.

İlk növbədə, hazırki bələdiyyə orqanının mövqeyini izah etmək istərdim. Bələdiyyə orqanları vətəndaşlar tərəfindən seçilmiş və şəxsi əmlakına və büdcəsinə sahib müstəqil dövlət qurumudur. Onlar demokratiyanın təməl daşlarından birini təmsil edirlər. Bunu nəzərə alaraq, dövlət hakimiyyətinin icra orqanı olan Nazirlik yerli hökumət orqanı olan – Praqa-6 bələdiyyəsinin qərarına qarışa bilməz. İ.S.Konevin abidəsi Praqa-6 rayonunun mülkiyyətidir və məhz onun hökumət orqanları abidənin taleyi barədə qərar qəbul etməlidirlər.

Çexiya Respublikası, 1944-cü və 1945-ci illərdə Praqa və Çexoslovakiyanın bir hissəsinin azad edilməsində həyatlarını qurban verən Qırmızı Ordu əsgərləri daxil olmaqla, bütün nasizmə qarşı döyüşənlərə və bütün nasist repressiya qurbanlarına dərindən hörmət bəsləyir. Siz, əlbəttə, bilirsiniz ki, dövlətimiz şəhid əsgərlərinin məzarlarına böyük diqqətlə yanaşır. Bununla əlaqədar qeyd etmək istərdim ki, 15 mart 1999-cu ildə Moskvada, Çexiya Respublikası və Rusiya Federasiyası arasında izmalanmış hərbi qəbirlərin qarşılıqlı saxlanmasına dair sazişin müddəalarına şamil edilmədiyinə görə İ.S.Konevin abidəsi hərbi

məzar olmayıb və heç vaxt da olmayacaq. Baxmayaraq ki, Praqa-6 abidəyə hər zaman lazımi qayğını göstərir.

Siz bildirirsiniz ki, İ.S.Konevin abidəsi Praqa sakinlərinin azadlıqlarının minnətdarlıq rəmzidir. Hesab edirəm ki, abidənin görünüşündəki dəyişiklik edilməsi barədə qərarı Praqa sakinlərinin və demokratik yolla seçilmiş nümayəndələrin öhdəsinə buraxmaq yeganə mümkün həll yoludur. İ.S.Konevin abidəsinin taleyi Praqa özünüidarə qurumlarının və onun sakinlərinin daxili məsələsidir.

Düşünürəm ki, hər bir tarixi mövzuya siyasi məna vermək lazım deyil, əlaxsüs bu məhz qarşıdan gələn regional seçkilər ərəfəsində baş verdikdə. Qarşılıqlı münasibətlərimizin inkişaf etməsinə maneə olan bu kimi mövzulara yol verməsək çox məmnun olardım.

Zati-aliləri
Ermənistan Respublikasının Çexiya Respublikasındakı
Fövqəladə və Səlahiyyətli Səfiri
**Tiqran Seyranyan**

Zati-aliləri
Azərbaycan Respublikasının Çexiya Respublikasındakı
Fövqəladə və Səlahiyyətli Səfiri
**Fərid Şəfiyev**

Zati-aliləri
Belarus Respublikasının Çexiya Respublikasındakı
Fövqəladə və Səlahiyyətli Səfiri
**Valeriy Kurdyukov**

Zati-aliləri
Qazaxıstan Respublikasının Çexiya Respublikasındakı
Fövqəladə və Səlahiyyətli Səfiri
**Serjan Abdıkarimov**

Zati-aliləri
Rusiya Federasiyasının Çexiya Respublikasındakı
Fövqəladə və Səlahiyyətli Səfiri
**Aleksandr Vladimiroviç Zmeyevskiy**